# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 8 may tarixli 60 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında müəllimlərin dövlət musiqi təhsili müəssisələrinə işə qəbulu, bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması Qaydaları"nda dəyişiklik edilməsi barədə**

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin müraciətini nəzərə alaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 8 may tarixli 60 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında müəllimlərin dövlət musiqi təhsili müəssisələrinə işə qəbulu, bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması Qaydaları"na aşağıdakı məzmunda 8-ci bölmə əlavə edilsin:

**"8. Keçid müddəa**

1 iyul 2021-ci il tarixədək dövlət musiqi təhsili müəssisələrində müəllim vəzifəsində işləyən orta təhsilli şəxslər müvafiq qiymətləndirilmə aparılmaqla, həmin müəssisələrdə müəllim vəzifəsində işləyən və pensiya yaşına çatmasına ən çoxu 3 il qalan şəxslər isə müvafiq qiymətləndirilmə aparılmadan tutduqları vəzifələr üzrə ixtisaslı kadrlar təyin olunanadək müddətli əmək müqaviləsi əsasında əmək fəaliyyətlərini davam etdirirlər.".

2. Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi və Maliyyə Nazirliyi bu Qərardan irəli gələn məsələləri həll etsinlər.

3. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, 20 oktyabr 2021-ci il

№ 223